***ALİ MƏCLİSİN İCLASI***

*24 dekabr 2025-ci il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini* ***Bəxtiyar Məmmədov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli Elşad müəllim!

Hörmətli hökumət üzvləri və media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının səkkizinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar!

Bildiyiniz kimi, bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin doğum günüdür.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən şanlı dövrünü yaşayır. Ölkəmiz dünyada söz sahibi olan dövlətə çevrilib. Sürətli və dinamik sosial-iqtisadi inkişaf, yüksək rifah, sabitlik və təhlükəsizlik Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edib. 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulması ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən Böyük Qayıdış strategiyası, aparılan genişmiqyaslı quruculuq işləri, məskunlaşma Azərbaycan dövlətinin iqtisadi qüdrətinin daha bir göstəricisidir. Sözsüz ki, bu işlərin tərkib hissəsi kimi reallaşan Zəngəzur dəhlizi Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsini təmin etməklə yanaşı, həm də muxtar respublikanın inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Sadalanan bu uğurlar ölkə Prezidenti cənab İlham Əliyevə böyük xalq sevgisi qazandırmışdır. Qürurverici haldır ki, vaxtilə doğum günlərində cəbhə bölgələrində olan Müzəffər Ali Baş Komandan artıq hər il doğum gününü işğaldan azad olunmuş torpaqlarda yeni sosial obyektlərin, inzibati binaların və istehsal sahələrinin istifadəyə verilməsi ilə, ən əsası isə abad şəhər və kəndlərdə məskunlaşan sakinlərlə birgə qeyd edir.

Biz də möhtərəm cənab Prezidentimizi doğum günü münasibəti ilə Ali Məclis adından təbrik edir, dövlətimizin inkişafı, xalqımızın rifahının yüksəldilməsi yolunda ali dövlətçilik fəaliyyətində uğurlar arzulayırıq!

*(Alqışlar.)*

Deputatlardan çıxış etmək istəyən varmı?

Buyurun, Arzu müəllim!

**A.Abdullayev,** *Ali Məclis sədrinin müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Elşad müəllim!

Hörmətli hökumət üzvləri, deputatlar və media nümayəndəri!

Qeyd olunduğu kimi, bu gün keçirilən iclas çox əlamətdar tarixi bir günə təsadüf edir. Belə ki, bu gün Azərbaycan dövlətçiliyi və xalqının taleyində çox əlamətdar tarixi gün hesab olunur. Bilirsiniz ki, bəşəriyyətdə hər zaman dövlətçiliyin və dövlətlərin mövcudluğunun əsas formulu liderlə sıx bağlı və asılı olmuşdur. Bu baxımdan Azərbaycanın dövlətçilik tarixində də lider amili böyük rol oynayır. Biz buna XX əsrin ikinci yarısından iki dəfə Azərbaycana böyük liderlərin rəhbərliyi və müasir Azərbaycanın quruculuğu prosesində şahid ola bildik.

XX əsrin ikinci yarısından sonra Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Azərbaycanı ən çətin dövrdə postsovet ölkələri sırasında ən geridə qalmış dövlətdən irəliyə çıxara bilmiş, ən əsası iqtisadiyyatı və milli mədəni dəyərləri, dövlətçiliyi bərpa edərək Azərbaycan dövlətçiliyinin bərpa olunmasının stimulunu, eyni zamanda bazasını yaratmışdır. Bilirik ki, Azərbaycanın çox çətin, eyni zamanda məhv olma təhlükəsi ilə, yəni olum və ölüm dilemması ilə üz-üzə qaldığı bir dövrdə Ulu Öndər ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanı bu ağır vəziyyətdən çıxarmış və müasir Azərbaycanı qurmuş, onun əsas milli ideologiyasını və siyasi xəttini müəyyənləşdirmişdi.

Məhz bu siyasi xətti davam etdirən cənab Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi isə bu gün qüdrətli bir Azərbaycanın qurulması ilə nəticələndi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də cənab İlham Əliyev kimi böyük bir şəxsiyyəti Azərbaycan xalqına bəxş etməsi idi.

Məhz cənab İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan bir çox ilklərə imza atdı ki, bu, beynəlxalq miqyasda da ən yüksək səviyyədə qəbul olunan və dövlətlər tərəfindən də böyük lider kimi arzulanan cənab İlham Əliyev faktorunu yaratmışdır. Cənab Prezident Azərbaycana üç əsrdən sonra ərazi bütövlüyü təmin etdi, beş əsrdən sonra suverenlik gətirdi. Ölkə başçısı müasir, qüdrətli, güclü və dünyada tanınan bir Azərbaycanı bizə ərmağan etdi. Cənab İlham Əliyev Azərbaycanda xalq və lider faktorunun birgə düsturunu və formulunu yaratdı, arxasında isə milyonlarla azərbaycanlını apara bildi və bunun nəticəsində xalq-iqtidar birliyi formalaşdı. Cənab İlham Əliyev davamlı Azərbaycan iqtisadiyyatını dayanıqlı iqtisadiyyata keçirə bildi və bütün bunlarla yanaşı, çətin bir dövrdə uzun illər böyük barıt çəlləyinə bənzədilən Cənubi Qafqazı da xilas edərək demokratiya, eləcə də müstəqillik və suverenlik bəxş etdi.

Bilirik ki, istənilən zaman bəzi dövlətlər Azərbaycana və digər Cənubi Qafqaz dövlətlərinə təsir etmək üçün orada özləri üçün bir baza formalaşdırırdı, amma cənab İlham Əliyevin fəaliyyəti nəticəsində məhz Cənubi Qafqaz da bu gün öz iradəsiylə, dövlətlər öz gücü ilə və Azərbaycanın razılığı ilə bütün layihələri reallaşdıra bilir. Təbii ki, bütün bunlar cənab Prezidentin həyata keçirdiyi reallıqlardır. Bu gün dünyada şimaldan-cənuba, şərqdən-qərbə böyük bir tranzit xəttinin əsasını qoyan və idea müəllifi olan, Zəngəzur dəhlizini reallaşdıran da cənab İlham Əliyevdir ki, bu, həm Azərbaycanın, həm Cənubi Qafqazın, eyni zamanda hər birimiz üçün doğma olan Naxçıvanın da yeni inkişaf modelini formalaşdırır. Bu baxımdan ölkə başçısının fəaliyyəti, Onun Azərbaycanı qürur mənbəyinə çevirməsi Azərbaycan xalqını da Onun ətrafında sıx birləşdiribdir. “Konstitusiya və Suverenlik İli”ndə cənab Prezidentin humanizmin əsas prinsipi olan amnistiya haqqında qərarının da Milli Məclisə göndərilməsi və orada təsdiq olunmasını, əlbəttə, Azərbaycan tarixində həm də fəlsəfi-hüquqi yanaşmanın əsas bazası hesab edə bilərik.

Cənab Prezidentin fəaliyyəti dövründə səkkiz amnistiya aktı qəbul olunmuşdur ki, 70 min vətəndaşımıza artıq bu amnistiya aktı təsir edib və bu 70 min soydaşımızın ətrafında 100 minlərlə soydaşımıza sevinc bəxş olunmuşdur. Bütün bu uğurlarla yanaşı, əlbəttə humanizmi, insan kapitalını da öndə saxlayan cənab İlham Əliyevdir və bizim də hər birimizin borcu cənab Prezidentin etimadına sadiq olmaq, Onun ətrafında sıx birləşmək və dövlətçiliyimizi qorumaq, möhkəmləndirməkdir. Bu istiqamətdə cənab Prezidentə bütün deputatlarımız adından cansağlığı arzu edir və Onun ali, şərəfli, müqəddəs işində daim uğurlar arzu edirəm.

Diqqətinizə görə sağ olun!

*(Alqışlar.)*

**Sədrlik edən.** Təşəkkür edirəm, Arzu müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Sevil xanım!

**S.Hacıyeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli hökumət üzvləri, deputatlar və iclas iştirakçıları!

Bu gün ölkə başçısı möhtərəm cənab Prezident İlham Əliyevin doğum günüdür. Dövlət başçısına ən səmimi təbriklərimizi çatdırır, müəllifi olduğu suveren və qüdrətli Azərbaycanın gələcək inkişafında daha böyük uğurlar arzulayırıq.

Sözsüz ki, cənab İlham Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyəti, Onun dövlətimiz və xalqımız qarşısındakı xidmətləri geniş məruzələrin, siyasi-ideoloji və elmi müzakirələrin predmetidir. Lakin mən bu gün dövlət başçısının Azərbaycan təhsilinin inkişafı ilə bağlı gördüyü işlərə qısaca nəzər salmaq istəyirəm.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının müasir inkişaf strategiyasının əsas hədəflərindən biri də insan kapitalının formalaşdırılmasıdır. Bu baxımdan təhsil sahəsi dövlət siyasətinin mərkəzində dayanır. Ümummilli Liderimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam və inkişaf etdirilir. Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" milli təhsil sistemimizin yol xəritəsidir.

Dövlət büdcəsi xərclərinin funksional təsnifatının "təhsil bölməsi" üzrə xərclərin hər il artırılması, təhsil infrastrukturunun müasirləşdirilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi, tələbə, magistrant və doktorantların təqaüdlərinin artırılması təhsilin dövlət siyasətində prioritet mövqedə olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin apardığı siyasətə dəstək olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən ölkənin ən ucqar bölgələrində belə müasir standartlara uyğun məktəblərin inşa edilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi xüsusi qeyd olunmalıdır.

Xüsusilə Vətən müharibəsindən sonra azad edilmiş ərazilərdə təhsil infrastrukturunun bərpası Prezident İlham Əliyevin strateji baxışının təzahürüdür. Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan "ağıllı kənd" və "ağıllı məktəb" konsepsiyaları göstərir ki, təhsil postmünaqişə dövründə bərpa və inkişaf prosesinin əsas sütunlarından biridir.

Bu günlərdə möhtərəm Prezidentimiz tərəfindən daha bir hümanitar addımın atılması - “Konstitusiya və Suverenlik İli” çərçivəsində amnistiyanın elan edilməsi təşəbbüsü müasir Azərbaycan dövlətçiliyinin hüquqi, siyasi və mənəvi əsaslarını üzvi şəkildə birləşdirən mühüm dövlətçilik aktıdır. Bu təşəbbüs sübut edir ki, dövlətimiz əldə etdiyi suverenliyi yalnız ərazi bütövlüyünün bərpası ilə deyil, eyni zamanda Konstitusiyanın ruhuna uyğun olaraq insan hüquq və azadlıqlarının təmin edilməsi, sosial ədalətin qorunması və hüquqi sabitliyin möhkəmləndirilməsi yolu ilə dərinləşdirir. Beləliklə, “Konstitusiya və Suverenlik İli” münasibətilə irəli sürülmüş amnistiya təşəbbüsü hüquqi dövlət quruculuğunun yeni mərhələsini ifadə etməklə yanaşı, milli barış, ictimai etimad və dövlət-vətəndaş münasibətlərinin möhkəmləndirilməsi baxımından dərin siyasi məna daşıyır. Bu təşəbbüs göstərir ki, müstəqil Azərbaycan hüquq, ədalət və insan mərkəzli siyasət prinsiplərini öz suveren inkişaf yolunun ayrılmaz tərkib hissəsi kimi qəbul edir və gələcək mərhələdə də bu xəttə sadiq qalacaqdır.

Hörmətli iclas iştirakçıları!

Bu gün əminliklə deyə bilərik ki, cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü təhsil siyasəti gələcəkdə də Azərbaycanın davamlı inkişafının əsas təminatçısı olacaqdır.

Bir daha cənab Prezidenti doğum günü münasibətilə təbrik edir, ali dövlətçilik fəaliyyətində uğurlar arzulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm!

*(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, Sevil xanım!

Başqa çıxışı olan varmı?

Buyurun, Əli müəllim!

**Ə.Həşimov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli kabinet üzvləri!

Müasir Azərbaycanın uğurlu inkişaf yolu Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş milli dövlətçilik strategiyasına əsaslanır. Bu strateji xəttin əsas mahiyyəti güclü dövlət, sabit cəmiyyət və milli maraqlara söykənən müstəqil siyasət idi. Bu gün qürurla deyə bilərik ki, Ulu Öndərin müəyyən etdiyi bu tarixi missiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük əzmkarlıq, siyasi iradə və yüksək məsuliyyətlə davam etdirilərək yeni mərhələyə yüksəldilmişdir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan, ilk növbədə, ərazi bütövlüyünü və dövlət suverenliyini tam təmin etmişdir. Onun Ali Baş Komandan kimi qətiyyətli rəhbərliyi, müdrik siyasi qərarları və güclü ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan öz tarixi ədalətini bərpa etmiş, beynəlxalq hüquqa əsaslanan mövqeyini döyüş meydanında və siyasi müstəvidə təsdiqləmişdir. Bu qələbə yalnız hərbi uğur deyil, milli ruhun, dövlət iradəsinin və Prezidentə olan xalq etimadının təntənəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün tam suveren, müstəqil və öz gələcəyini özü müəyyən edən dövlətdir. Dövlət başçısının qətiyyətli mövqeyi nəticəsində ölkəmizin daxili işlərinə hər hansı müdaxilə cəhdləri fiyaskoya uğramış, milli maraqlara əsaslanan müstəqil xarici siyasət xətti formalaşdırılmışdır. Azərbaycan artıq regional deyil, beynəlxalq müstəvidə bir sıra proseslərdə təşəbbüskar və söz sahibi olan dövlət kimi çıxış edir.

Cənab Prezidentin fəaliyyətinin mühüm istiqamətlərindən biri də ölkənin sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsidir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan güclü iqtisadi təmələ malik, maliyyə baxımından müstəqil, sosial rifahı daim yüksələn dövlətə çevrilmişdir. Regionların balanslı inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və insan kapitalına yönəlmiş siyasət bu strategiyanın əsas sütunlarını təşkil edir. Bu inkişaf strategiyası çərçivəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına da böyük pay düşmüşdür. Hazırda Prezident cənab İlham Əliyevin diqqəti ilə Naxçıvanda genişmiqyaslı infrastruktur layihələri, enerji və nəqliyyat təhlükəsizliyi istiqamətində tədbirlər həyata keçirilir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikanın dayanıqlı inkişafını təmin edən strateji sənəd kimi bu diqqətin konkret ifadəsidir. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən nəqliyyat və logistika siyasəti Azərbaycanın beynəlxalq səviyyədə əhəmiyyətini daha da artırmışdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri, regional kommunikasiyaların bərpası və yeni logistik imkanların yaradılması ölkəmizi mühüm tranzit və əməkdaşlıq mərkəzinə çevirmişdir. Bu kontekstdə Naxçıvan Muxtar Respublikası da mühüm strateji əhəmiyyət kəsb edərək regional nəqliyyat və iqtisadi əməkdaşlıq perspektivlərində önəmli yer tutur.

Cənab Prezidentin siyasətində xüsusi yer tutan məsələlərdən biri də sülh prosesinin təmin olunmasıdır. Dövlət başçısı postmünaqişə dövründə regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olunması üçün prinsipial və konstruktiv mövqe nümayiş etdirir. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi ölkəmizin güclü dövlət olmaqla yanaşı, məsuliyyətli və etibarlı tərəfdaş olduğunu bir daha sübut edir.

Hörmətli həmkarlar!

Bu əlamətdar gündə biz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi doğum günü münasibətilə dərin hörmət və səmimiyyətlə təbrik edirik. Ona möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji, dövlətçilik fəaliyyətində və qüdrətli Azərbaycanın inkişafı naminə ali missiyasında uğurlar arzulayırıq.

Əminik ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra daha da böyük zirvələr fəth edəcək, xalqımızın rifahı və dövlətimizin qüdrəti daha da artacaqdır.

Diqqətiniz üçün sağ olun!

*(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun, Əli müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Asəf müəllim!

**A.Orucov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Elşad müəllim!

Hörmətli həmkarlar, hökumət üzvləri və media nümayəndələri!

Bu gün həqiqətən də çox əlamətdar bir gündür. Dekabr ayının 24-ü Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günüdür. Bu əlamətdar tarix münasibətilə möhtərəm Prezidentimizi təbrik edir, Onun dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərini xüsusi vurğulamaq istəyirəm.

Bir elm adamı kimi xüsusilə qeyd etmək istərdim ki, cənab Prezident bütün fəaliyyət dövrü ərzində elmə, elm adamlarına, elmi məktəblərin qorunub saxlanılmasına və elmin modernləşdirilməsinə daim xüsusi diqqət və qayğı göstərmişdir. Onun rəhbərliyi dövründə elm və təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş, elmi potensialın qorunması və gücləndirilməsi məqsədilə ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir.

Bu gün Ulu Öndərin elm siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir. Son illər ərzində AMEA-nın maddi-texniki bazası əsaslı şəkildə möhkəmləndirilmiş, akademiya şəhərciyində yerləşən binalar təmir edilmiş, yeni böyük elmi kitabxana və Azərbaycan Milli Ensiklopediyası üçün müasir bina inşa olunmuşdur. Elmi-tədqiqat institutları avadanlıqlarla təchiz edilmiş, elmin inkişafı üçün zəruri şərait yaradılmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son onillikdə Azərbaycan elminə ayrılan maliyyə vəsaitləri dəfələrlə artırılmış, 2009-cu ildə Azərbaycan Elm Fondu yaradılmış, Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Elmə dövlət qayğısının daha bir parlaq nümunəsi kimi 27 Mart - Elm Gününün təsis edilməsi xüsusilə qeyd olunmalıdır. Prezidentin 2010, 2015 və 2025-ci illərdə AMEA-nın yubiley mərasimlərində etdiyi proqram xarakterli çıxışlar elmin inkişaf perspektivlərini aydın şəkildə ortaya qoymuşdur.

Hörmətli iclas iştirakçıları!

Bir elm və təhsil işçisi kimi xüsusi vurğulamaq istəyirəm ki, cənab Prezident tərəfindən elmi kadr hazırlığına göstərilən diqqət və qayğı son dərəcə qürurverici və təqdirəlayiqdir. Bu siyasət nəticəsində bu gün Azərbaycanda müasir dövrün tələblərinə cavab verən, milli maraqlara xidmət edən güclü alim ordusu formalaşmaqdadır.

Sonda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi - dövlətimizin və xalqımızın əvəzolunmaz liderini, Azərbaycan elminin böyük himayədarını bir daha doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Ona və ailəsinə möhkəm cansağlığı, uzun ömür, Vətənimizin daha da çiçəklənməsi, iqtisadi, siyasi və hərbi qüdrətinin artırılması, dövlət müstəqilliyimizin və ərazi bütövlüyümüzün dönməzliyi naminə müqəddəs fəaliyyətində yeni uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun!

*(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun, Asəf müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar, bildiyiniz kimi, iclasın gündəliyinə 4 məsələ daxildir. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Hörmətli həmkarlar!

Gündəliyin birinci məsələsi "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Qanun layihəsi ötən plenar iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilmişdir.

Daxili Nizamnamənin 20.6-cı maddəsinə əsasən aparıcı komitə tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyevə verilir.

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar, hökumət üzvləri və iclas iştirakçıları!

İlk növbədə, hər birinizi salamlıyıram!

Nəzərinizə çatdırıram ki, "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 19 dekabr 2025-ci il tarixdə ikinci oxunuşda qəbul edilərək baxılması üçün komitəyə göndərilmişdir. Qanun layihəsinə heç bir əlavə və düzəliş olmamışdır. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilə bilər.

Diqqətiniz üçün minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Hörmətli həmkarlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya təklifi olan varmı?

Buyurun, Arzu müəllim!

**A.Abdullayev,** *Ali Məclis sədrinin müavini.*

Hörmətli iclas iştirakçıları!

Gündəlikdə duran ilk məsələ ilə bağlı fikrimi bildirmək istəyirəm. Təbii ki, bir aydan çox müddətdir hökumət tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsi göndərilib və bu müddət ərzində həm komitə iclaslarında, həm də iki plenar iclasda oxunuş keçirilmişdir. Bu müstəvidə həyata keçirilən müzakirələrdə əldə olunan nəticələr və təkliflər, eyni zamanda bu istiqamətdə qarşıya çıxan suallar və ardınca müzakirələrdən gələn nəticə bunu deməyə əsas verir ki, "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi kifayət qədər təkmil hazırlanmışdır.

Eyni zamanda funksional və iqtisadi təsnifatlara da baxdıqda muxtar respublikanın ötən və gələcək hədəfləri, keçmişdə olan müəyyən xərclər və gəlirlər məsələsi diqqətlə izlənilmiş və qurumların da xərclər smetasında bu, öz əksini tapmışdır. Həm müzakirələrin nəticəsini, həm də Hesablama Palatası tərəfindən verilən rəyi nəzərə alsaq, Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi kifayət qədər təkmil hazırlanmaqla yanaşı, həm də iqtisadi reallıqları özündə əks etdirir. Hesab edirəm ki, bir ay ərzində hökumətlə parlament arasında vahid mövqe nümayiş olundu. Bu müsbət haldır, mən də üçüncü oxunuşa təqdim olunan büdcə layihəsinin lehinə səs verəcəyəm. Hesab edirəm ki, deputat həmkarlarım da layihənin lehinə səs verəcək.

Təqdim olunan büdcə layihəsinə görə hökumət rəhbəri Elşad müəllim başda olmaqla, bütün hökumət üzvlərinə təşəkkür edir, 2026-cı ildə həm dövlətçilik fəaliyyətlərində, həm də büdcənin icrası istiqamətində uğurlar arzu edirəm.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 42 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

İndi isə çıxış etmək üçün söz Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini cənab Elşad Əliyevə verilir.

Buyurun, Elşad müəllim!

**E.Əliyev,** *Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Arzu müəllim!

Hörmətli deputatlar, hökumət nümayəndələri və sessiya iştirakçıları!

Qeyd olunduğu kimi, bu gün 24 dekabr - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin doğum günüdür. İlk olaraq bu tribunadan istifadə edərək Naxçıvan Muxtar Respublikasının hökuməti adından cənab Prezidentimizi təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ali dövlətçilik fəaliyyətində yeni uğurlar, Azərbaycanımızın davamlı inkişafı və xalqımızın rifahı naminə gördüyü işlərdə daim müvəffəqiyyətlər arzulayıram.

*(Alqışlar.)*

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş müstəqil dövlətçilik prinsiplərinə və inkişaf strategiyasına əsaslanan siyasi kursun cənab Prezident tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsi nəticəsində ölkəmizin dayanıqlı sosial-iqtisadi tərəqqisi təmin edilmiş, dövlət idarəçiliyinin səmərəliliyi yüksəldilmiş, milli maraqların etibarlı müdafiəsi və beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi istiqamətində mühüm nəticələr əldə olunmuşdur. Eyni zamanda, cənab Prezidentin qətiyyətli liderliyi və strateji qərarları sayəsində ölkəmizin ərazi bütövlüyü təmin edilmiş, işğal altında olan torpaqlarımız azad edilmiş, suverenliyimizin möhkəmləndirilməsi və azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması üçün əsaslı zəmin yaradılmışdır.

Hörmətli deputatlar!

Bu gün müzakirəsinə toplaşdığımız Naxçıvan Muxtar Respublikasının növbəti il üçün büdcə layihəsi muxtar respublikanın fiskal siyasətinin əsas istiqamətlərini müəyyən edən, sosial-iqtisadi inkişaf prioritetlərini büdcə resursları ilə uzlaşdıran və dövlət vəsaitlərinin səmərəli idarə olunmasına xidmət edən mühüm sənəddir. Təqdim olunan büdcə layihəsi mövcud maliyyə imkanları və iqtisadi reallıqlar nəzərə alınmaqla balanslaşdırılmış şəkildə hazırlanmış, sosial öhdəliklərin icrası, yerli gəlir bazasının genişləndirilməsi, maliyyə intizamının gücləndirilməsi və xərclərin nəticəyönümlü planlaşdırılması prinsiplərinə əsaslanmışdır.

Mən, fürsətdən istifadə edərək “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin və ümumilikdə büdcə zərfinə daxil olan sənədlərin Ali Məclisdə səmərəli müzakirəsinə, toxunulan vacib məsələlərə, suallara və dəyərli tövsiyələrə görə Ali Məclisin deputatlarına şəxsən öz adımdan, eləcə də hökumət üzvləri adından təşəkkürümü bildirirəm.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əldə olunan nailiyyətlərin əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvana göstərdiyi ardıcıl diqqət və qayğı dayanır. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan davamlı və uzaqgörən iqtisadi inkişaf strategiyasının ölkə başçısı möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə dinamik inkişafın möhkəm təməli yaradılmışdır. Bazar iqtisadiyyatı prinsiplərinin tam tətbiqi, investisiya siyasətinin bölgələrin balanslı inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması sosial-iqtisadi inkişaf siyasətinin başlıca istiqamətlərini təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının inkişafının yeni, keyfiyyətcə üstün mərhələyə yüksəlməsində son illərdə regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regional inkişaf siyasəti artıq yeni mərhələyə qədəm qoymuş, ölkənin bütün bölgələrində inkişafın sabit və sistemli şəkildə davam etdirilməsi üçün geniş imkanlar açmışdır.

Hörmətli deputatlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən maliyyə intizamının gücləndirilməsi, şəffaflıq və dayanıqlı büdcə idarəçiliyi siyasəti nəticəsində həm mərkəzi, həm də yerli büdcələrin idarə olunması yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. 2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi də bu yanaşmanın tərkib hissəsi olmaqla, sosial istiqamətlərin prioritetliyi və özünümaliyyələşdirmə potensialının genişləndirilməsi prinsiplərini əsas tutaraq hazırlanmışdır.

2026-cı il büdcə layihəsində muxtar respublikanın öz gəlirləri 271 milyon 550 min manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da 2025-ci ilin təsdiq olunmuş büdcə göstəriciləri ilə müqayisədə 64 milyon 120 min manat və ya 30,9 faiz çoxdur. Eyni zamanda, Azərbaycan Respublikasının dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına 2026-cı ildə ayrılması nəzərdə tutulan dotasiyanın həcmi, yəni transfertin yuxarı həddi 211 milyon 628 min manat təşkil edir ki, bu da 2025-ci illə müqayisədə 74 milyon 85 min manat azdır.

Layihəyə əsasən 2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə xərcləri 483 milyon 178 min manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 22 milyon 6 min manat və ya 4,4 faiz azdır.

Büdcə layihəsində mərkəzləşdirilmiş gəlirlər 441 milyon 623 min 200 manat, yerli gəlirlər isə 41 milyon 554 min 800 manat, mərkəzləşdirilmiş xərclər 436 milyon 628 min 600 manat, yerli xərclər isə 46 milyon 549 min 400 manat həcmində proqnozlaşdırılmışdır.

Növbəti ilin büdcə xərclərinin strukturunda cari xərclər 416 milyon 549 min 408 manat və ya 86,2 faiz, əsaslı xərclər isə 66 milyon 628 min 592 manat və ya 13,8 faiz təşkil edir.

2026-cı il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin sosialyönümlü xərcləri 365 milyon 13 min 11 manat və ya 75,5 faiz həcmində proqnozlaşdırılmışdır ki, bu da 2025-ci illə müqayisədə 28 milyon 64 min 657 manat və ya 8,3 faiz artım deməkdir.

Büdcə layihəsinə əsasən Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarından 5-i xərclərini öz gəlirləri hesabına, 3-ü isə yerli gəlir və xərclərin tənzimlənməsi məqsədilə mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsait hesabına maliyyələşdirəcəkdir. Yerli gəlir və xərclərin tənzimlənməsi üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 4 milyon 994 min 600 manat təşkil edir ki, bu da 2025-ci illə müqayisədə 1 milyon 224 min 400 manat və ya 19,7 faiz azdır.

Hörmətli sessiya iştirakçıları!

2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi mövcud maliyyə imkanları və iqtisadi reallıqlar nəzərə alınmaqla balanslaşdırılmış şəkildə hazırlanmışdır. Büdcə layihəsi yerli gəlirlərin artırılması, mərkəzləşdirilmiş transfertlərdən asılılığın azaldılması, sosialyönümlü xərclərin prioritetləşdirilməsi və maliyyə resurslarından daha səmərəli istifadə olunması məqsədlərinə xidmət edir.

Büdcə layihəsi dövlətin sosial öhdəliklərinin tam və vaxtında icrasını təmin etməklə yanaşı, iqtisadi fəaliyyətin dəstəklənməsinə, şəhər və rayonların maliyyə təminatının möhkəmləndirilməsinə, habelə muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafının təmin olunmasına real zəmin yaradacaqdır.

Əminliklə demək olar ki, 2026-cı il büdcəsinin icrası Naxçıvan Muxtar Respublikasında maliyyə intizamının gücləndirilməsinə, şəffaflığın artırılmasına və ən əsası əhalinin rifahının daha da yüksəldilməsinə xidmət edəcəkdir. Bir daha "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin və ümumilikdə büdcə zərfinə daxil olan sənədlərin Ali Məclisdə səmərəli müzakirəsinə görə hər kəsə dərin minnətdarlığımı bildirir, gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm və qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibəti ilə sizləri təbrik edirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

*(Alqışlar.)*

**Sədrlik edən.** Təşəkkür edirəm, Elşad müəllim!

Etiraz etmirsinizsə, 15 dəqiqəlik fasilə edək və sonra gündəlikdə duran növbəti məsələlərin müzakirəsini davam etdirək.

Büdcə layihəsi ilə bağlı müzakirələrdə iştiraka görə hökumət üzvlərinə təşəkkür edir və büdcənin icrasında uğurlar arzulayırıq. Bildirmək istəyirəm ki, fasilədən sonra iclasda iştirak etməyə bilərsiniz.

Çox sağ olun! Başqa təklifi olan varmı?

Yoxdur.

15 dəqiqə fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar, iclasımız davam edir.

Gündəlikdə müzakirə olunan ikinci məsələ üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınmışdır.

Gündəliyin ikinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 19 dekabr 2025-ci il tarixdə ikinci oxunuşda qəbul edildikdən sonra daxili ziddiyyətlərin aradan qaldırılması və eyni zamanda redaktə edilməsi üçün aparıcı komitə olan Hüquq siyasəti komitəsinə göndərilmişdir. Komitənin 23 dekabr 2025-ci il tarixdə keçirilən iclasında müzakirə olunmuş və layihənin müzakirəsi zamanı deputatlar tərəfindən hər hansı təklif və ya irad bildirilmədiyindən Hüquq siyasəti komitəsinin protokol qaydasında qəbul edilmiş qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi üçüncü oxunuş üçün təqdim edilmişdir.

Sağ olun!

**Sədrlik edən.** Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 42 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ “Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 19 dekabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilmiş, söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununa təklif edilən dəyişikliklərlə qanunun keçid müddəaları və 12-ci maddəsi istisna olunmaqla bütün maddələrdə dəyişikliklər edilməsi, yeni söz və cümlələrin, abzasların əlavə edilməsi nəzərdə tutulur.

Təklifə əsasən qanunun preambulasında hüquqi yardım göstərilən şəxslərin dairəsi dəqiqləşdirilir və “fiziki və hüquqi şəxslərə” ifadəsi çıxarılır. Eyni zamanda qanunun 1-ci maddəsi ilə Vəkillər Kollegiyasının təşkilati hüquqi formasında dəqiqləşdirmə aparılır və “Vəkillər Kollegiyası qeyri-kommersiya hüquqi şəxsidir” şəklində ifadə olunur, yəni “Kollegiyası” sözündən sonra “qeyri-kommersiya” sözləri əlavə olunur. Eyni zamanda 1-ci maddənin IV hissəsində Vəkillər Kollegiyasının orqanlarının sayı genişləndirilir və ümumi olaraq Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı, Vəkillər Kollegiyasının Rəyasət Heyəti, Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyası Vəkillər Kollegiyasının orqanları siyahısına daxil edilir.

2-ci maddə Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı ilə bağlıdır. Burada Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid olan məsələlər geniş şəkildə izah olunur və mahiyyət etibarı ilə əvvəlki redaksiyadan xeyli fərqlənir.

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə - Vəkillər Kollegiyasının Nizamnaməsini, Vəkillərin İntizam Komissiyasının Əsasnaməsini, Vəkillərin İxtisas Komissiyasının Əsasnaməsini təsdiq etmək və onlarda dəyişiklik etmək aiddir. Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, Vəkillərin İntizam Komissiyasının sədrini, sədr müavinini və digər üzvlərini seçmək, eyni zamanda Vəkillər Kollegiyasının büdcəsini və üzvlük haqqının məbləğini müəyyən etmək səlahiyyətləri verilir.

Qanunun 3-cü maddəsində sadəcə texniki düzəliş edilir. 3-cü maddənin II hissəsində birinci cümləyə "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri əlavə edilir, eyni zamanda 3-cü maddədə Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinin iki dəfədən artıq seçilə bilməməsi ilə bağlı olan müddəa qanundan çıxarılır.

3-cü maddənin III hissəsində Vəkillər Kollegiyasının Rəyasət Heyətinin səlahiyyətləri məsələsinə toxunulur. Bu əsas mahiyyət etibarı ilə vəkillik səlahiyyətlərinə xitam verilməsi ilə bağlı məsələlərdir. Bununla bağlı vəkillər haqqında məlumatların vəkil reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına təqdim edilməsi, dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarının təsdiq edilməsi və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edilməsi, eyni zamanda Vəkillərin İxtisas Komissiyasının vəkil üzvlərinin təyin edilməsi, vəkilləri həvəsləndirmə qaydası, ixtisas imtahanının qaydası və digər mühüm məsələlər müəyyənləşdirilib. Bura vəkilliyə qəbul üzrə imtahanda iştirak haqqının məbləğinin müəyyən edilməsi, eyni zamanda Vəkillər Kollegiyasına daxil olmuş vəsaitlərin xərc istiqamətlərinin müəyyənləşdirilməsi kimi mühüm məsələlər də daxildir.

IV hissədə Vəkillər Kollegiyasının Rəyasət Heyətində səsvermənin keçirilmə üsulu ilə bağlı dəyişiklik var. Burada səsvermənin açıq şəkildə keçirilməsi və üzvlər arasında səslərin bərabər olacağı təqdirdə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin iclasına sədrlik edənin səsinin həllediciliyi ilə bağlı müddəa daxil edilmişdir.

4-cü maddədə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədrinin səlahiyyətləri hissəsində kollegiya sədrinin kollegiya adından çıxışı məsələsində ikinci abzasa "edir" sözündən sonra "və onun adından çıxış edir" sözləri, üçüncü, beşinci – səkkizinci və onuncu abzaslara "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri əlavə edilir.

Vəkillərin İxtisas Komissiyasından bəhs edən 5-ci maddədə əsas mühüm dəyişiklik Vəkillərin İxtisas Komissiyasının əvvəl beş olan üzvünün sayının yeddiyə çıxarılmasıdır. Burada beş vəkil, bir hakim və bir hüquqşünas alimdən ibarət Vəkillərin İxtisas Komissiyasının formalaşdırılmasından bəhs edilir. Eyni zamanda köhnə redaksiyada Vəkillərin İxtisas Komissiyasının səlahiyyət müddəti ilə bağlı hər hansı bir müddəa yox idi, dəyişikliklə artıq bu müddət beş il olaraq müəyyənləşdirilmişdir və qanunun 5-ci maddəsindəki digər dəyişikliklər texniki və dəqiqləşdirmə aparılması ilə bağlı edilmiş dəyişikliklərdir.

6-cı maddə vəkilin andı ilə bağlıdır. Qeyd edilən məsələlər demək olar ki, maddənin mahiyyətini dəyişən dəyişikliklər deyil, texniki məsələləridir.

Digər məsələ Vəkillərin İntizam Komissiyasının səlahiyyət müddəti ilə bağlıdır. Bununla bağlı hazırda qüvvədə olan redaksiyada hər hansı bir müddəa yox idi, qanuna təklif edilən dəyişikliklə bu müddət Vəkillərin İntizam Komissiyası üçün beş il olaraq müəyyənləşdirilir.

7-ci maddəyə III hissə əlavə olunur və orada qeyd olunur ki, "Barəsində intizam icraatı aparılan vəkillər intizam icraatı zamanı qanunla və Vəkillərin İntizam Komissiyasının Əsasnaməsi ilə təsbit olunan hüquq və vəzifələrə malikdirlər."

8-ci maddə demək olar ki, tamamilə dəyişilir, bu vəkillərin intizam məsuliyyətinə cəlb olunması ilə bağlı məsələlərdir ki, onlar əvvəllər aidiyyəti baxımdan məhkəmənin səlahiyyətində idi, artıq bu məsələ Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən həyata keçiriləcəkdir və VI hissənin tələbinə görə Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkillərə xəbərdarlıq, töhmət, üzvlük haqqının 10 misli həcmində cərimə, vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması və Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmə kimi intizam tənbehi tədbirlərinin tətbiq edilməsi artıq Vəkillər Kollegiyasının səlahiyyətində olacaqdır.

9-cu maddədə vəkillərin fəaliyyətinə xitam verilməsinin əsasları idi. Burada əsaslar dəyişilimir, sadəcə vəkillik fəaliyyətinə xitam verilməsi əsaslarına Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilməsinin əsası əlavə olunur ki, Azərbaycan Respublikası vətəndaşlığına xitam verilən şəxslərin vəkillik fəaliyyətinə xitam verilməsi üçün də hüquqi əsas yaradılmış olur.

Vəkillər Kollegiyasının vəsaiti ilə bağlı 10-cu maddədə dəyişiklik nəzərdə tutulur ki, "Vəkillər Kollegiyasının vəsaiti daxil olan üzvlük haqqından, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənbələrdən və qanunla qadağan edilməyən digər mənbələrdən formalaşır" şəklində ifadə olunur.

Qeyd etməliyəm ki, qanun lahiyəsi birinci oxunuşdan sonra aparıcı komitəyə qaytarılmış və komitənin 23 dekabr 2025-ci il tarixdə keçirilən iclasında geniş müzakirə olunmuşdur. Qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş daxili ziddiyyətlərlə bağlı müzakirələr aparılmış və ötən iclasda deputat Kamil Şükürov tərəfindən səsləndirilən "Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının vəkil reyestrinin aparılmasında iştirak edir" ifadəsinin daxil edilməsi ilə bağlı iş aparılmışdır. Artıq həmin məsələ bir az daha dəqiqləşdirilərək vəfat hallarında və digər məsələlərdə Vəkillər Kolegiyası başqa şərhə yol verilməməsi üçün qanunun 9-cu maddəsində nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı səlahiyyətləri həyata keçirir, "vəkillər haqqında məlumatları vəkil reyestrinə daxil edilməsi üçün Azərbaycan Vəkillər Kollegiyasına təqdim edir" şəklində düzəliş edilərək təqdim edilmiş və bu şəkildə komitədə qəbul edilmişdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası tərəfindən də qanunun 10-cu maddəsində Vəkillər Kollegiyasının vəsaiti ilə bağlı məsələnin daxil edilməsi ilə əlaqədar daxil olmuş təklifə baxılmış və "Vəkillər Kollegiyasının vəsaiti daxil olan üzvlük haqqından, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənbələrdən və qanunla qadağan edilməyən digər mənbələrdən formalaşır." şəklində 10-cu maddə redaktə edilmişdir. Bununla da 23 dekabr 2025-ci il tarixdə Hüquq siyasəti komitəsində keçirilən iclasda bu iki məsələ xaricində qanun layihəsi birinci oxunuşda olduğu kimi səsə qoyularaq qəbul edilmiş və ikinci oxunuşa təqdim edilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuş üçün əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 42 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşdan qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 42 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran dördüncü məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsidir.

Ali Məclisin Daxili Nizamnaməsinin 56-cı maddəsinə əsasən Ali Məclisin xərclər smetası Ali Məclisdə növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir. Buna müvafiq olaraq “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsi hazırlanmışdır.

Ali Məclisin 2026-cı il xərclər smetası haqqında məlumat vermək üçün söz Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyevə verilir.

**N.Möhbalıyev,** *Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Arzu müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

İlk növbədə hər birinizi salamlayıram.

Diqqətinizə çatdırıram ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı ildə saxlanılma xərcləri 7 milyon 797 min 990 manat nəzərdə tutulmuşdur ki, bu da 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz yəni 270 min 120 manat azdır.

Yaranmış fərq əsasən vakant vəzifələr üzrə komplektləşmə faizinin aşağı götürülməsi və Ali Məclisin inzibati binalarında aparılacaq təmir tikinti işlərinin 2026-cı il üzrə dövlət əsaslı vəsait qoyuluşlu investisiya xərclərində nəzərdə tutulması ilə bağlı olmuşdur.

İcazənizlə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və onun aparatının 2026-cı il üçün xərclər smetasının qərar lahiyəsini diqqətinizə təqdim edim.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

2026-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və onun aparatının fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 56-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və onun aparatının 2026-cı il üçün xərclər smetası 7 797 990 (yeddi milyon yeddi yüz doxsan yeddi min doqquz yüz doxsan) manat məbləğində təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və onun aparatının 2026-cı il üçün xərclər smetası aşağıdakı qaydada bölüşdürülsün:

| | | |
|---|---|---|
| 210000 | Əməyin ödənişi | 6 713 310 manat |
| 211000 | Əməkhaqqı | 5 397 663 manat |
| 211100 | Ştatda olan işçilərin əməkhaqqı | 5 127 749 manat |
| 211900 | Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri | 269 914 manat |
| 212000 | Əməkhaqqına görə ayırmalar | 1 315 647 manat |
| 212100 | Məcburi dövlət sosial sığorta haqları | 1 187 486 manat |

| | | |
|---|---|---|
| 212200 | İcbari dövlət sığortası | 5 917 manat |
| 212300 | İcbari tibbi sığorta | 107 953 manat |
| 212400 | İşsizlikdən sığorta | 14 291 manat |
| 220000 | Malların (işlərin və xidmətin) satınalınması | 950 230 manat |
| 221000 | Malların satınalınması | 170 000 manat |
| 221100 | Dəftərxana və təsərrüfat xərcləri | 70 000 manat |
| 221200 | Mətbəə məhsulları üzrə xərclər | 15 000 manat |
| 221300 | Yanacaq və sürtkü materiallarının alınması | 80 000 manat |
| 221400 | Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması | 500 manat |
| 221500 | Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması | 3 000 manat |
| 221900 | Digər malların alınması | 1 500 manat |
| 222000 | İş və xidmətlərin alınması | 764 980 manat |
| 222100 | Cari təmir | 45 000 manat |
| 222110 | Tikili və avadanlıqların cari təmir xərcləri | 15 000 manat |
| 222120 | Nəqliyyat vasitələrinin cari təmir xərcləri | 30 000 manat |
| 222200 | Kommunal xidmətlərin haqqının ödənilməsi | 46 944 manat |
| 222210 | Elektrik enerjisi haqqının ödənilməsi | 24 444 manat |
| 222220 | Qaz haqqının ödənilməsi | 12 000 manat |
| 222230 | Su haqqının ödənilməsi | 4 500 manat |
| 222240 | Kanalizasiya xidmətləri haqqının ödənilməsi | 4 500 manat |
| 222290 | Digər kommunal xidmətlərin haqqının ödənilməsi | 1 500 manat |
| 222300 | Rabitə xidmətləri haqqının ödənilməsi | 20 700 manat |
| 222310 | Telefon danışıq haqlarının ödənilməsi | 15 200 manat |
| 222311 | Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | 15 000 manat |
| 222312 | Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi | 200 manat |
| 222320 | Poçt xidmətləri haqqının ödənilməsi | 500 manat |
| 222330 | İnternet xidməti haqqının ödənilməsi | 5 000 manat |
| 222400 | Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri | 188 276 manat |
| 222430 | Mühafizə xərcləri | 185 132 manat |
| 222440 | Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri | 1 724 manat |
| 222441 | Əsas fondlara xidmət haqqı xərcləri | 1 224 manat |

| | | |
|---|---|---|
| 222442 | Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | 500 manat |
| 222450 | Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi | 1 420 manat |
| 222500 | Ezamiyyə xərcləri | 5 000 manat |
| 222510 | Ölkədaxili ezamiyyətlər | 5 000 manat |
| 222600 | Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi | 210 manat |
| 222900 | Digər iş və xidmətlərin haqqının ödənilməsi | 458 850 manat |
| 222910 | Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər | 5 000 manat |
| 222920 | İstehlakyönlü müxtəlif xidmətlər | 25 000 manat |
| 222940 | Bank və plastik kartların xərcləri | 21 650 manat |
| 222941 | Bank xidmətləri haqqının ödənilməsi | 21 650 manat |
| 222990 | Sair xərclər | 407 200 manat |
| 224000 | Təmsilçilik və təşviqat xərcləri | 15 250 manat |
| 224100 | Təmsilçilik xərcləri | 15 250 manat |
| 224120 | Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi | 15 250 manat |
| 270000 | Sosial ödənişlər | 31 500 manat |
| 271000 | Sosial sığorta | 7 000 manat |
| 271200 | Müavinət | 7 000 manat |
| 271220 | Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | 2 000 manat |
| 271260 | Dəfn üçün müavinət | 5 000 manat |
| 279000 | Digər sosial ödənişlər | 24 500 manat |
| 279100 | Dövlət qulluqçularına ödənişlər | 24 500 manat |
| 280000 | Dövlət icbari şəxsi sığorta xərcləri | 49 650 manat |
| 281000 | Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları | 49 650 manat |
| 310000 | Qeyri-maliyyə aktivləri | 53 300 manat |
| 311000 | Torpaq, tikili və avadanlıqlar | 50 000 manat |
| 311100 | Tikili və avadanlıqlar | 30 000 manat |
| 311150 | Maşın və avadanlıqlar | 30 000 manat |
| 311900 | Sair torpaq, tikili və avadanlıqlar | 20 000 manat |
| 314000 | Qeyri-maddi aktivlər | 3 300 manat |

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Nihad müəllim!

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı Komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!